# Düşüncələrim



Adil Misirli

## Kaş

Dərdlərim öyrətdilər
Mənə bütün rəngləri.
Nolaydı, rənglərin də
Dərd-səri bir olaydı.
Mənim bütün dərdlərim
Kaş rəngsiz doğulaydı.

## Yaxşı ki...

Ömrü boyu
Süründü...
Həyatdan
Köç edəndə
Başlar üstə
Göründü...

## Ancaq

Bir zamanlar həyatda
Sənlə sənsiz yaşadım.
İkimizin dərdini
Ancaq mən tək daşıdım...

## Hələ də...

Səni görə bilmirəm,
Kirpiyin kölgə salır
Elə bil, gözlərimə...
Baxışlarım hələ də
Gəlməyib özlərinə...

## Döyməz qapısını...

Qarımış qıza bənzər
Sirli dünya, nədənsə...
Döyməz qapısını da
Elçi heç vaxt bu qızın.
Ömrü bəxtsiz dünyadır
Hər tənhanın, yalqızın...

## Sözüm qədər olmadım...

İstədim ömrüm boyu,
Böyük olum özümdən,
Özüm qədər olmadım...
Hər sözümsə böyüdü,
Sözüm qədər olmadım...

## Təəssüf

Bəxtim yanımdan keçdi,
Əlim tuta bilmədi.
Mən bu dərdi unutdum,
Bəxt unuda bilmədi...

## Son...

Sözün düz çıxdı çox sənin,
Uçrummuş sonu zirvənin...

## Nədən

Taleyimin əlindən
Heç zaman qaçammadım.
Öz gizli sirlərimə
Qapını açammadım...

## Sevincim qədər

Sevinəndə nədənsə,
Bürüyür kədər məni.
Kədərlərim də boğur
Sevincim qədər məni...

## Saçlarını ağartdı

Qızıl payız ömrünü
Uzatmağa can atdı,
Ancaq qarlı qış gəlib
Saçlarını ağartdı...

## Özümdən oldum

Ömrüm bəxtin əlinə
Bilmirəm necə düşdü.
Xoş günün qapısında
Ayaqlarım sürüşdü...

Yollar itdi gözümdən
Oldum özüm özümdən...

## Belə də olur...

Söyüdə barsız deyib
Min bir oyun açdılar.
Günəş yandırandasa
Kölgəsinə qaçdılar.